Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Azərbaycan xalqının dahi sənətkarı

**Səttar Bəhlulzadənin 110 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Sevgül Adgözəlova**
**Aynur Hüseynova**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Azərbaycan xalqının dahi sənətkarı**: Səttar Bəhlulzadənin 110 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası ; tərt.ed. Sevgül Adgözəlova, Aynur Hüseynova; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2019. – 25 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

## Tərtibçilərdən

Musiqimizdə Vaqif Mustafazadə, rejissorluqda Adil Babayev, ədəbiyyatda Rəsul Rza yenilikçi, novatar kimi qəbul olunursa, rəngkarlıq sahəsində bu "titul"un daşıyıcısı şübhəsiz ki, Səttar Bəhlulzadədir. Səttar Bəhlulzadə Azərbaycan incəsənət tarixində dərin iz buraxmış, əsərlərinin sonsuz fəlsəfi mahiyyəti və doyumsuz enerji yükü ilə fövqəladə yaradıcılıq qabiliyyətinə malik şəxsiyyətlərdəndir. Onun əsərləri özündə milli və bəşəri ənənələrin "qızıl bölüm prinsipinə əsaslanmaq"la yaradılması metodu və bu vəhdətin bütöv şəkildə harmonik təcəssüm olunması ilə seçilir.

Ötən əsrimizin 70-ci illərində Azərbaycan təsviri sənət sahəsində fərqlənənlər, diktə olunan mövzu, üslub ilə barışmayanlar sırasında Səttar Bəhlulzadənin adını xüsusi olaraq qeyd etmək vacibdir. Səttar Bəhlulzadə yaradıcılığı ilə yeni bir yolun, yeni üslubun başlanğıcı qoyulur.

Səttar Bəhlulzadə yaradıcılığında mənzərələrlə yanaşı həm boyakarlıq, həm də qrafika əsərlərindən natürmortlar xüsusi yer tutur. Rəssam yaradıcılığı boyu işlədiyi "təmiz" natürmortlarla yanaşı, bəzi əsərlərində natürmortdan ikinci dərəcəli, yardımçı vasitə kimi istifadə edib. Elə əsərlərdə var ki, hər iki janra – mənzərə və natürmort janrına aid etmək olar, belə əsərlər iki janrın arasında, sərhədində durur.

Səttar Bəhlulzadənin əsərləri lirizmlə zəngindir, eyni zamanda onlar kompozisiya tamlığı, məna bitkinliyi, peşəkarlıq baxımdan kamilliyi ilə səciyyələnir.

Tarix belə sənətkarları az-az yetirir. Səttar Bəhlulzadə, həqiqətən, Tanrının xalqa bəxşişi, təpədən dırnağa istedad idi. Rənglərin sehrini açdı, möcüzələr yaratdı.

Bütün varlığı ilə Azərbaycan təbiətinə bağlı olan, onun gözəlliklərini, dağını, dərəsini, gülünü, çiçəyini min bir

məhəbbətlə tablolarında əks etdirən Səttar Bəhlulzadə olmuşdur. Bəzən deyirlər ki, böyük sənətkarları görmək, onlarla yaxından təmasda olmaq, haqqında müəyyən xatirələri bilmək xoşbəxtlikdir. Bəlkə də belədir. Amma Səttar Bəhlulzadəni tanımaqla tanımamaq arasında elə bir fərq, uzun məsafə yoxdur. Çünki Səttar Bəhlulzadə kim idisə, elə əsərlərində də odur. Bizim yaddaşımızda Səttar Bəhlulzadə ən çox pərişan saçları, qeyri-adi baxışları, şümşad barmaqları... və bir də möcüzəli tabloları ilə qalıb.

Vəsait Səttar Bəhlulzadənin 110 illik yubileyi münasibətilə respublikamızda fəaliyyət göstərən uşaq kitabxanalarında keçiriləcək tədbirlərə köməklik məqsədilə yazılmışdır. Vəsait iki hissədən ibarətdir. I hissə Səttar Bəhlulzadənin həyat və yaradıcılığından, II hissə isə kitabxanada ona həsr olunmuş yubiley tədbirlərindən bəhs edir.

## Həyat və yaradıcılığı

Ulu Tanrının bu xalqa bəxş etdiyi şəxsiyyətlər arasında qəribə taleli bir sənətkar da var. Ömür-gününü təbiət gözəlliklərini, müxtəlif xarakterli insan talelərini rənglərin dili ilə danışdırmağa həsr edən, hərdən ətrafını unudub özünə qapılan, dünya malında zərrə qədər gözü olmayan Səttar Bəhlulzadənin onlar arasında öz yeri, öz mövqeyi var.

Səttar Bəhlulzadə 15 dekabr 1909-cu ildə Bakının Əmircan kəndində - Abşeron yarımadasında dünyaya göz açıb. Təbiidir ki, balaca Səttarın yaşadığı mühit onun rəssamlıq sənətini seçməsinə təsir etməyə bilməzdi. Xəzərin şahanə və duyğulandırıcı mənzərəsi, coşqun dalğaların bir-birini əvəzləyən ritmi, Xəzərin qumlu sahili, Abşeron bağları, Abşeron memarlığının sərt və lakonik cizgiləri gələcəkdə rəssam Səttarın yaradıcılığını təşkil edəcək əsərlərinin ən populyar mövzusuna çevriləcəkdi.

Azərbaycan Əməkdar incəsənət xadimi, Xalq rəssamı, Dövlət mükafatı laureatı, boyakarlıq sənətimizdə mənzərə janrının yaradıcılarından biri Səttar Bəhlulzadə təbiət aşiqi idi.

Səttar Bəhlulzadə 1927-ci ildə müvəffəqiyyətlə imtahan verib sonralar "Əzimzadə məktəbi" kimi məşhurlaşacaq Azərbaycan Dövlət Rəsssamlıq Texnikumunun tələbəsi olur. Burada 1931-ci ilə qədər təhsil alan gənc müəllimlərindən təsviri sənətin sirlərinə yiyələnir. Onun təhsil illərindəki ilk uğurları görkəmli fırça ustası Əzim Əzimzadənin diqqətindən yayınmır və o, Səttarı son kursda oxuya-oxuya özünün baş rəssamı olduğu "Kommunist" qəzetində işləməyə dəvət edir. Böyük sənətkarın bu etimadına razılığını bildirən gənc Səttar iki il burada çalışır. Səttar Bəhlulzadə 1933-cü ildə Moskvaya gedərək V.İ.Surikov adına Moskva Rəssamlıq İnstitutunun qrafika fakültəsinə qəbul olunur.

Sonralar Səttar Moskvadakı təhsil illərini xatırlamaqdan usanmazdı, dövrünün görkəmli qrafikləri olan V.A.Favorski, P.Y.Pavlinov, K.N.İstomin və L.A.Brunidən sənətin bu növünün incəliklərinə yiyələndiyini fəxrlə söyləyərdi. Səttar bu görkəmli sənətkarlardan, xüsusilə də bilavasitə emalatxanasında çalışdığı V.A.Favorskidən qrafikanın sayagəlməz texniki və bədii ifadə vasitələrini öyrənə bilib və bunu bütün yaradıcılığı boyu çəkdiyi qrafik əsərlərin əlçatmaz bədii məziyyətləri ilə təsdiqləyib.

Krımda keçirilən yay təcrübəsi zamanı Səttarın uğurlu rəngkarlıq etüdlərini görən məşhur rəssam Q.M.Şeqal ona rəngkarlıq fakültəsinə keçməyi təklif edir və o da tərəddüd etmədən buna razılıq verir. Beləliklə, Səttar Bəhlulzadə üçüncü kursdan başlayaraq institutda Q.M.Şeqalın rəhbərlik etdiyi emalatxanada təhsilini davam etdirir, realist sənət ənənələrini dərindən mənimsəyir. Gənc Səttarın həmin illərdəki uğurlarını yağlı boya ilə çəkdiyi “Naturaçı qız” (1939) və “Qaraçı qadın” (1939) etüdləri də təsdiqləyir.

Səttar Bəhlulzadə 1960-cı ildə Əməkdar incəsənət xadimi, 1963-cü ildə Xalq rəssamı fəxri adlarına və 1972-ci ildə Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür.

Böyük Vətən müharibəsi illərində Səttar Bəhlulzadə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda müəllimlik etmişdir. O dövrlər dünyada çox çətin proseslər baş verirdi. Həyatın bütün sahələrində düşmən üzərində qələbə naminə çox güclü mübarizə aparılırdı. Səttar Bəhlulzadə o zaman, bir çoxları kimi, hansısa müasir hərbiçini, dövlət xadimini yox, sırf xalqımızın keçmiş qəhrəmanlıq ənənələrini, tarixi şəxsiyyətləri təsvir etməklə həm özünün milli köklərə sayğısını, həm də bu obrazlarla düşmənə qalib gəlmək əzmini aşılayırdı. “Babək üsyanı”, “Fətəli xan”, “Bəzz qalasının müdafiəsi”, “Xəttat Mirəli Təbrizi” və s. əsərlərini belə

nümunələrdən saymaq olar. “Bəzz qalasının müdafiəsi” adlı əsəri kolorit zənginliyi, obrazların canlılığı və kompozisiyanın bitkinliyi ilə diqqəti cəlb edir. Bu tablosunda yadelli işğalçılara qarşı mübarizəyə qalxan xürrəmilərin çoxsaylı ümumiləşdirilmiş fiqurları müdafiənin uğurlu olması təəssüratını yaradır.

Səttar Bəhlulzadə bir rəssam kimi özünü mənzərə janrında təsdiq etmişdir. Səttar Bəhlulzadənin yaradıcılığını 1950-ci illərin axırlarınadək əhatə edən – “Dənizkənarı bulvar”, “Xaçmaz yolunda” , “Qız bənövşəyə gedən yol”, “Qudyalçay vadisi”, “Qudyalçay sahili”, “Payız”, “Çiçəklər”, “Bahar”, “Yaşıl xalı”, “Yuxarı daşaltı”, “Çiçəklər”, “Bahar nəğməsi” və s. əsərləridir.

Səttar Bəhlulzadə təbiətin vurğunu, sənətinin “dəlisi”, hisslərinin azad ifadəçisi, düşüncələrini rənglərlə ifadə etməyi bacaran rəssam-filosof olmuşdur.

50-ci illərdən sonra, yəni 60-cı illərdə artıq S.Bəhlulzadə axtarışlarla dolu yaradıcılığı yüksələn xətlə inkişaf etmişdir. Bu dövrdə rəssam artıq öz üslubunu, öz dəst-xəttini yaratmışdır. Kompozisiya, kolorit, işıq-kölgə və perspektiv həlli tamamilə rəssamın daxili aləminin, hisslərinin diktəsinə tabe edilmişdir. “Xəzər üzərində axşam” (1959), “Xəzər gözəli” (1961), “Torpağın arzusu” (1963), “Kəpəzin göz yaşları” (1965), “Azərbaycan nağılı” (1970), “Corat yemişləri” (1971), “Əfsanəvi torpaq” (1971), “Naxçıvan dağları” (1973), “Naxçıvan” (1974), “Axşamçağı Ordubad dağlarından” (1974) və s.

Rəssamın bütün əsərlərinin mövzusunu Azərbaycan təbiəti təşkil edir: göllər, dağlar, çaylar, çəmənliklər və Xəzər dənizi görüntüyə gətirilən guşələrdir. Səttar Bəhlulzadə real Azərbaycan təbiətini təsvir edirdi. Konkret olaraq müşahidə

etdiyi, gəzib-gördüyü, təmas zamanı hiss edilən maddi materiyanı bədii biçimdə kətan üzərində əks etdirirdi.

Səttar Bəhlulzadə doğma vətənini qarış-qarış gəzərkən sanki təbiətin dilini öyrənirdi. Bunun nəticəsi idi ki, Səttar Bəhlulzadə hər hansısa bir rayonun təbiətini təsvir edərkən istifadə etdiyi kolorit, əhvali-ruhiyyə digər bir rayonun təbiətinin təsvirində təkrarlanmırdı. Qubanın təbiətinin təsvirinə həsr olunmuş tablolardakı incəliyə rəssamın heç bir əsərində rast gəlmək mümkün deyil. Azərbaycanın gözəl təbiəti ilə seçilən Quba rayonu onun tez-tez səfər etdiyi, gözəl əsərlər yaratdığı diyar idi. Ümumiyyətlə, Quba mövzusu rəssamın yaradıcılığında əsas yer tutur. 1972-ci ildə rəssamın Dövlət mükfatına layiq görülən əsərləri sırasında Quba mövzusunda olan "Şahnabad dağları" əsəri də var idi. Səttar Bəhlulzadənin bu əsərləri təbiətin özü qədər gözəl və cazibədar idi

Bu gün onun əsərləri ilə dünyanın çox yerində tanışırlar. Bu əsərlər Əlcəzair, Misir, Suriya, Tunis, Norveç, Livan, ADR, Çexoslovakiya, İraq, Bolqarıstan, Kanada, Fransa, Yaponiya və dünyanın bir sıra başqa ölkələrində nümayiş etdirilmişdir.

Özü bütün mənalarda seçilən olsa da bütün böyük şəxsiyyətlər kimi onun da qeyri-adi keyfiyyətləri ilə yanaşı, qəribə meyilləri, hətta çatışmazlıqları da vardı. Hələ uşaqlığından gələcək qeyri-adiliyinin qeyri-adi işığını özündə gəzdirən Səttar yəqin ki, elə bu cür də ömür sürməliydi. Bu səbəbdən də zamanın maneələr dramatizmi də onu sındıra bilmədi. Sənət tarixinə də yaratdığı ecazkar əsərləri ilə daxil oldu, müasirlərinin də yaddaşında həm də elə başqalarına bənzəmədiyinə, bütün ömrü boyu onu izləyən və zaman-zaman dramatikləşən kədəri sevinclə əvəzləyə bilmək qüdrətinə görə qaldı. Onu görənlərə, təmasda olanlara görkəmini xatırlatmağa ehtiyac yoxdur. Elə görməyənlər də bizə yadigar qalan çoxsaylı

fotoşəkillərdən onun çox qəribə və bənzərsiz olduğunu görə və duya biləcəklər.

Bu gün çəkdiyi portretin Roma papasının kolleksiyasında olması ilə öyünən rəssamdan fərqli olaraq, Səttar əsərinin Azərbaycanın ən ucqar bir nöqtəsində, adi bir insanın evində asılmasından qürur hissi keçirərdi. Onun böyük el məhəbəti qazanmasında bu amilin də böyük rol oynadığı birmənalıdır. Səttarın hələ sağlığında "Aramızda gəzən dahi" deyə çağrılması da artıq hökumətin onu ən yüksək formada dəyərləndirilməsindən də çox yüksəkdə dururdu.

50-ci illərdən başlayaraq ta ömrünün sonunadək Səttar Bəhlulzadə çəkdiyi mənzərələrində insan təsvirlərinə çox az yer vermişdir. Əsərlərində insan təsviri olmasa da tamaşaçı insan əməyinin tablolarda əks olunan təntənəsi qarşılığında təbiətin ən ali varlığının bu yerlərdə qərar tutduğuna qəlbən inanır.

Əgər azərbaycanlı rəssamın əsərləri bu cür yüksək bədii dəyərli olmasaydı Səttar Bəhlulzadəni dünya səviyyəsində qəbul etməzdilər. Onun UNESCO səviyyəsində əsərlərinin sərgisinin təşkil olunması, 2011-ci ilin "Səttar Bəhlulzadə ili" elan edilməsi "Sənətin Məcnunu"na verilən ən yüksək dəyərləndirmənin göstəricisidir.

Səttar Bəhlulzadənin 1973-cü ilin payızında ilk dəfə Moskvada təşkil olunan fərdi sərgisi onun sənətinin zamansızlığını təsdiqlədi, desək, həqiqəti ifadə etmiş olarıq. Ağır xəstə olan rəssam çətinliklərə baxmayaraq, dostlarının köməyi ilə Moskvaya getdi və sənətinin təntənəsinə şahidlik etdi və gördükləri ona duyulası yaradıcı ruh verdi. Geri qayıtdıqdan sonra nümayiş etdirdiyi qeyri-adi məhsuldarlıq da bunu təsdiqləyir.

Rəssam Füzuli və Məcnuna həsr etdiyi portretlərdə tez-tez sufi poeziyasi üçün ənənəvi metafora olan şam motivindən-Allah-taalanın rəmzi kimi və ona yaxınlaşaraq, bu

müqəddəs alovda yanmaqdan şərəf duyan sufi-pərvanədən istifadə edir. Səttarı Füzuli və onun qəhrəmanı ilə bağlayan da elə bu idi və bu əlaqə təhtəlşüurun ən dərin qatlarında baş verirdi.

Səttar Bəhlulzadə rəngkarlığı Azərbaycanı tərənnüm edən, bu torpağın polifonik mənzərəsini yaradan bir himndir. Azərbaycan adlanan dünyanın Səttarın fırçasına mənsub tablosunda Azərbaycan torpağının ümumiləşdirilmiş bədii obrazından əlavə, bu torpaqda yaşayan xalqın yaratdığı qədim mədəni ənənələrin harmoniyası öz əksini tapmışdır. Rəssamın özünəməxsus üslubunda incə rəng duyumlu, major boyalı, simvolik və metaforik təsvir vasitəli, mürəkkəb bədii sistemli milli mədəniyyətin əks-sədası duyulur. Səttar Bəhlulzadə dünya mədəniyyəti tarixində bir hadisədir, onun şəxsiyyətinin miqyası ölçüyə gəlmir.

1955-ci ilin payızında R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində Səttar Bəhlulzadənin fərdi sərgisi açıldı. Sərgidə artıq görkəmli mənzərə ustası kimi tanınan rəssamın təxminən son üç il ərzində yaratdığı 180-ə qədər mənzərə və etüdlər nümayiş etdirildi. Sərgi böyük müvəffəqiyyətlə keçdi və müəllifinə ümumxalq şöhrəti gətirdi.

Səttar Bəhlulzadə Azərbaycan rəssamlığına bir çox töhfələr verdi. O, mənzərəçi-rəssam kimi, bizdə Azərbaycan təbiətinə daha gözəl sevgilər oyatdı. Bir daha sübut etdi ki, ən ülvi gözəllik məhz Vətəndir.

Səttar Bəhlulzadə 1974-cü ilin oktyabrın 14-də vəfat etmişdir. Onun ölümü ağır itki idi. Xüsusən sənət üçün, onu sevənlər üçün. Böyük bir sənət dünyası bu dünyadan gedirdi. Aləm Səttarsız qalırdı, onun daha sənət səsi eşidilməyəcəkdi, daim narahat qəlbi döyünməyəcəkdi, yeni işıqlı əsərləri yaranmayacaqdı.

## Yubiley tədbirlərinin keçirilməsi

Dünya şöhrətli rəssam Səttar Bəhlulzadənin anadan olmasının 110 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: rəsm sərgiləri, rəsm müsabiqəsi keçirilə bilər. Səttar Bəhlulzadənin rəsm əsərlərini gənc nəslə tanıtmaq, sevdirmək məqsədilə kitabxanalarda ilk növbədə fərqli başlıqlar altında rəsm sərgisi keçirilməlidir. "Dəyərli incəsənət xadimi – Səttar Bəhlulzadə", "Aramızda gəzən dahi", "Dövrünün görkəmli incəsənət nümayəndəsi – Səttar Bəhlulzadə", "Azərbaycan xalqının dahi sənətkarı" və s.

Səttar Bəhlulzadənin həyat və yaradıcılığından bəhs edən filmlərin nümayişi keçirilsin.

1. Toğrul Nərimanbəyov (1966)-*İştirak* (Qısametrajlı Sənədli Televiziya Filmi);
2. Bu, Səttar Bəhlulzadədir (1969)-*İştirak* (Qısametrajlı Sənədli Televiziya Filmi);
3. Üç Hekayə (1974)-*Arxiv kadrlar* (Qısametrajlı Sənədli Televiziya Filmi);
4. Səttar Bəhlulzadə (1988)-*Arxiv kadrlar* (Qısametrajlı Sənədli Film).









## Səttar Bəhlulzadənin həyat və yaradıcılığı, rəsm əsərləri haqqında "Rəy sorğusu"

1. Hansı azərbaycanlı rəssamları tanıyırsınız?

---

2. Hansı rəsm əsəri Səttar Bəhlulzadə yaradıcılığına aid deyil?

a) Xəzərdə axşam



b) Torpağın arzusu



c) Cənub küləyi



d) Bakı yağışdan sonra



3. Sizcə, Səttar Bəhlulzadənin yaşadığı həyat tərzi rəsm əsərlərinə təsir etmişdir?
    a) Bəli
    b) Xeyr

4. “Səttar Bəhlulzadə ili” nə vaxt elan edilmişdir?
a) 1998
b) 2011
c) 2015

5. Səttar Bəhlulzadə yaradıcılığa kimin rəhbərliyi ilə başlayıb?

---

6. Səttar Bəhlulzadə ilk dəfə hansı qəzetdə yaradıcılığa addım atıb?
a) “Kommunist”
b) “Füyuzat”
c) “Əkinçi”

7. Rəssamın qrafik irsi 1977-ci ildə hansı şəhərdə sərgi şəklində tamaşaçılara təqdim oluunmuşdur?
a) Praqa
b) Moskva
c) Bakı

8. Səttar Bəhlulzadə yaradıcılığında daha çox hansı meyvəni təsvir etməyə üstünlük vermişdir?

---

9. Səttar Bəhlulzadənin bir rəssam kimi yetişməsində böyük rolu olan üç müdrik sənət hansılardır?

---

10. Səttar Bəhlulzadə haqqında fikirlərinizi qeyd edin!

---

## Səttar Bəhlulzadənin öz sənəti haqqında fikirləri

- Mənim bir rəssam kimi yetişməyimdə üç müdrik sənətin: qədim xalça və miniatür sənətimizin, bir də ki, Füzulinin odlu, alovlu poeziyasının böyük təsiri olub.

- Hər bir sənətkar haqqında danışılarkən nədənsə ona, istər özündən əvvəl yaşamış, istərsə də müasiri olduğu böyük sənətkarların təsirini qeyd edirlər. Doğrusunu deyim ki, əgər mənim barəmdə buna oxşar fikir söylənsə onunla heç zaman razılaşa bilmərəm. Axı sənətkar adlanan kəsin, hər şeydən əvvəl, öz yönü və öz dəsti-xətti olmalıdır...

- Sənət tarixində hökm sürmüş və sürməkdə olan heç bir cərəyanı xoşlamıram. Mənim üçün ən yaxşı cərəyan, sənətkar qəlbinin səsidir...

- Sənət insanlarda həmişə xoş bir ümid oyatmalıdır...

- Böyük sənətkar yalnız o zaman adlana bilərsən ki, görmək və eşitmək istədiyini yaratmaq qüdrətin ola...

- Rəssam var ki, ideyanı qələmə alır, rəssam da var ki, emosiya və həyəcanı. Mən ikincidənəm...

- Yüksək hiss və duyğu! Bu iki gözəl nemət olmasa əsl sənətkar olmaq mümkün deyildir.

- Bu çətin sənət yolunda məqsədə çatmaq üçün canını fəda etməlisən, yoxsulluq çəksən belə, qəlbində olan sənət eşqinin alovu sönməməlidir, gecə yuxuda da xəyalın rənglərlə danışmalıdır, sənin bir dünyan olmalıdır, rəssamlıq dünyası...

- Rənglər də poeziya və musiqi kimidir. Onu da incivari seçib düzmək lazımdır.

- Həmcins rənglər bir yerdə xoş bir ahəng yaradır.

- On min yaşlı qobustanın qaya rəsmlərinə baxarkən düşünürəm ki, sənət yarananda nə din olmuş, nə də mürəkkəb insan münasibətləri. O, həyatın özü qədər qədimdir.

- Ən böyük rəssam təbiətdir.

- Mən iki uyğun rəngin qatışığına üçüncüsünü əlavə etmirəm.

- Hər nə çəkirsənsə çək, daxili tələbatla işə başlasan, istəyinə nail olarsan.

- Rəssam bal yetirən arıya oxşayır.

- Üst-üstə vurulmuş rəng xoşagəlimli olmur. Hər fonu bir dəfə vurmaq daha gözəldir.

- Hər hansı rəssamla salamlaşanda əlinə fikir verirəm, barmaqlarında rənglərdən azca əsər varsa, deyirəm:
  -Hə bax, bu rəssamdır.

- Gözəl şey həmişə əzəmətli olmalıdır. Gözəlliyi elə təsvir etmək lazımdır ki, ona baxanda insan heyranlıq və fərəh hissi ilə içini çəksin.

- Rənglərin biri digərini tamamlayaraq tabloda yaratdıqları yüksək kolorit həyatdakı sevinc anlarına bənzəyir.

- Mənə görə, özündə yaradıcı insan əməyini təcəssüm etdirən hər şey gözəldir. Öz əməyinin nəticəsi olan şey çətin ki, başqasına sənin qədər ləzzət versin. Çünki həmin şeydə sən özünü görürsən və bundan fərəhlənirsən. Başqası isə yalnız formanı görür və onu öz zövqünə görə qiymətləndirir. Mənim təbiətimə, mənzərələrimə insan əli sığal çəkir; o hər cür gözəlliyin yaradıcısı olan insan əməyi sayəsində öz kamil formasına düşür. Çox vaxt mən əsərlərimdə insanın yaratdığı, gözəlləşdirdiyi təbiəti, yaradıcı əməyi tərənnüm edirəm...

- Hər predmetin hüsnü onu əhatə edən aləmin gözəlliyindədir. Qartal uca qayalarda, bülbül çəmənlikdə gözəldir...

- İnsanın daxili aləmi, niyyəti özünün bütün genişliyi ilə onun yaratmış olduğu şeylərdə təcəssüm edir. Əgər bu beledirsə, yaratmış olduğu hər bir şeydə insan öz “məni”ni qismən, yada tam şəkildə ifadə etmirmi? Onda bəs nə üçün bir insanın öz əməlinin nəticəsindən onun üzünə qayıda bilməyək? Mənim yaratdığım əsərə bax, mənə qiymət ver. Yaxud, cəmiyyət üçün mənim dəyərim, mənim qiymətim gözəlliyimin dərəcəsidir. Mən insanı təbiət vasitəsilə tərənnüm edirəm. Ona görə ki, o, yaradıcı insan əməyini, insan niyyətini özündə predmetləşdirir, reallaşdırır, təcəssüm etdirir!

## Ədəbi-bədii gecə

Ədəbi-bədii gecə oxucular tərəfindən ən çox sevilən tədbirlərdəndir. Səttar Bəhlulzadənin yaradıcılığını oxuculara tanıtmaq məqsədilə kitabxanalarda ədəbi-bədii gecələrin keçirilməsi məqsədəuyğundur. Ədəbi-bədii gecəni "Sənətin Məcnunu – Səttar Bəhlulzadə" adlandırmaq olar. Tədbirin ssenarisini sizə təqdim edirik:

Tədbirdə rəssamın həyat və yaradıcılığı haqqında çıxışlar, oxucular tərəfindən hazırlanmış səhnəciklər də yer alır. Səhnə rəssamın portreti, rəsm əsərlərindən ibarət sərgi ilə, rəssamın söylədiyi fikirlər və haqqında yazılmış sitatlarla bəzədilir. Gecəyə rəssamın yaradıcılığına yaxından bələd olan tanınmış rəssamlar, jurnalistlər və rəsm sevərlər dəvət olunur. Aparıcılar səhnəyə çıxıb, tədbiri açıq elan edirlər.

**Aparıcı**: Salam əziz və hörmətli tədbir iştirakçıları! Bugünkü tədbirimiz Azərbaycan Əməkdar incəsənət xadimi, Xalq rəssamı, Dövlət mükafatı laureatı, boyakarlıq sənətimizdə mənzərə janrının yaradıcılarından biri Səttar Bəhlulzadənin həyat və sənət yoluna həsr edilmişdir. Sağlığında canlı əfsanəyə dönən və vəfatından sonra əsərləri sənət xiridarları arasında əlbəəl gəzən, adı dillərdə dolaşan, doğma Azərbaycan təbiətinə vurğunluğu ilə həm də "Sənətin Məcnunu" adı qazanan rəssamın alın yazısının ifadəsi olan ömür yolu əslində çox şirin bir nağıla bənzəyir. Səttar Bəhlulzadənin 1972-ci ildə milli təsviri sənətimiz qarşısında xidmətləri növbəti dəfə yüksək dəyərləndirilmişdir. O, yaratdığı "Azərbaycan nağılı", "Suraxanı torpağının qədim alovları", "Şahbanad dağları", "Piti", "Mərdəkan bağlarında", "Kəlağayı ilə natürmort" əsərlərinə görə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdür. Səttar Bəhlulzadənin bu əsərləri, doğrudan da, sənətsevərlər və mütəxəssislər tərəfindən rəğbətlə qarşılanan

sənət nümunələri idilər. Onların hər biri rəssam istedadının tükənməzliyindən, yaradıcılıq fantaziyasının zənginliyindən, boyakarlıq macerasının əsl novatorluğundan xəbər verirdi. İndi isə, oxucular tərəfindən Əməkdar incəsənət xadimi Səttar Bəhlulzadəyə ithaf olunmuş şeirlərlə gecəmizi davam etdiririk.

**I oxucu:**
Mən səni sevmişəm illərdən bəri,
Yurdum əks olunur əsərlərində.
Qartal qanadlanıb süzər göyləri,
Sərçə dövr eləməz mavi dərində.

Şeirdir canlanıb tablondan gülən,
Mənalar yaranır rəng çalarında.
Həyat qüdrətini hiss edirəm mən,
Kiçikli-böyüklü fırçalarında.

Əlinlə canlanır düzlər, dərələr,
Qışda da, yazda da gəzdin hər yanı.
Çəkdiyin tablolar, xoş mənzərələr
Tanıdır aləmə Azərbaycanı.

Nə qədər bağlısan ana torpağa,
Fırçanla canlanan öz çəmənimdir.
Fərəhdən ürəyim çevrilir dağa,
Deyirəm, nə yaxşı bu yurd mənimdir.

Hər lövhən vətənin bir parçasıdır,
Yurdumun şəklində əlvan rəngi var.
Çəmənin Qubanın öz xalçasıdır,
Onu əks eləyib solmaz boyalar.

Rənglərin göstərir söz qüdrətini,
Sənət dünyasına adını yazdın.
Ana yurdumuzun şeiriyyətini
Belə verməsəydin, Səttar olmazdın.

**II oxucu:**
Sənə söz çələngi hörürəm, ustad,
Qəlbimə silinməz adın yazılıb.
Səni öz evimdə görürəm, ustad,
Başımın üstündə şəklin asılıb.

İllərlə səsini dinləməsəm də,
Gözlərin ən yaxın həmsöhbətimdir.
Mən sənə yaraşan söz deməsəm də,
Qəbul et, ruhuna məhəbbətimdir.

**III oxucu:**
Adam var şan-şöhrət qonaqlığında
Elə məst olur ki, ayılmır qəti.
Yüz tərif eşidir öz sağlığında,
Ömrü bitən kimi bitir söhbəti...
Artır gündən-günə adın, hörmətin,
Hər tablon zirvədir, qanaddır sənə.
Hələ ehtiyatda qalan şöhrətin
Bil ki, ölməzlikdir, həyatdır sənə

**IV oxucu:**
Şəninə yüz yerdə tərif, söz olub,
Rəqibin az olub desəm, düz olmaz.
Neçə siyahıdan adın pozulub,
Tarixə yazılıb, heç vaxt pozulmaz!
Məcnunu olduğun təbiət kimi

Xalqın ürəyində ilahiləşdin.
Bütün paxıllara bir ibrət kimi
Rəqiblər kiçildi, sən dahiləşdin!

**V oxucu:**
İlahi eşq ilə alışıb yandın,
Qəlbin öz odundan gileyli oldu.
Gözəl təbiətə Məcnun yarandın,
Hər sənət əsərin bir Leyli oldu.

Daş da dilə gəlib dedi:-Məni çək,
Dağlar duvağına atdı başından.
Üzünə nur qondu, izinə çiçək
Vətən torpağının hər qarışından.

**VI oxucu:**
Bir dəfə yanında şeir oxudum,
Sən də Füzulini gətirdin dilə,
İstədim dediyim sözləri udum,
Tər töküb əridim hey gilə-gilə.

Sənə söz qoşuram... cəsarətə bax!
Ay ustad, bağışla, ərk eyləyirəm,
Qəbrinin üstünə gələndə ancaq
Sənə Füzulidən şeir deyirəm.

**VII oxucu:**
Sənə “mənzərəçi” deyirdi biri,
Elə bil muğama o, caz deyirdi.
Elə bil Sabirə qəzəl şairi,
Dahi Rafaelə rəngsaz deyirdi.
Anlada bilmədim o ürəksizə

İnsan ürəyidir çəkdiyin çiçək.
Fırçanla sən bizi göstərdin bizə,
Bunu ağlı korlar çətin görəcək.

**VIII oxucu:**
On beş dekabrda sən doğulmusan,
Ay ustad, on altı dekabrda mən.
Sən dillər əzbəri rəssam olmusan,
Yazıram- pozuram xırda-xırda mən.

Həyatda fərqimiz bircə gün imiş,
Sənətdə fərqimiz yerlə göy qədər.
Bu şöhrət halalca qismətin imiş,
Səttar əbədidir, mən gəldi-gedər.

**IX oxucu:**
...O bilir ki, ağılsız diri ikən ölüdür,
Bir dahini öldürüb dağ çəkir bir millətə.
Əcəl zalım ovuçtək gecə-gündüz ov güdür,
Şöhrətlini aparır çatmaq üçün şöhrətlə.

**Aparıcı:** Oxucuların çıxışından sonra Səttar Bəhlulzadənin yaradıcılığına həsr olunmuş "Səttar Bəhlulzadə (1988)-Arxiv kadrlar" qısametrajlı sənədli filmi təqdim olunur.

## Ədəbiyyat siyahısı


***Əsərləri***

**Səttar Bəhlulzadə** : Rəngkarlıq və qrafika = Sattar Bahlulzade : Painting&Graphics. - Bakı : Xalq Bank, 2012. - 228 s. : portr, foto, rəngli foto, rəngli il. - (Xalq əmanəti). - Azərbaycan və ingilis dillərində.

**Səttar Bəhlulzadə (1909-1974)** : rəngkarlıq qrafika. - Bakı : Şərq-Qərb, 2013. - 104 s. : rəngli foto, foto. - (Sərvət). - Azərbaycan və ingilis dillərində.

**Səttar Bəhlulzadə** : Qrafika. - Bakı : Qalereya 1969, 2013. - 164 s. : il., rəngli il.

**Səttar Bəhlulzadə** : Albom. - Bakı : [s. n.], 2009. - 102 s. : rəngli il. - Azərbaycan və ingilis dillərində.

***Haqqında***

***Kitablar***

**Əliyev Z.** Sənətin məcnunu : Kitab 2009-cu ildə YUNESKO-nun qərarı ilə anadan olmasının 100 illiyi qeyd edilən Azərbaycanın Xalq rəssamı Səttar Bəhlulzadənin həyat və yaradıcılığına həsr olunur. - Bakı : Aspoliqraf, 2009. - 392 s. : rəngli il., foto.

**Tahirov S.** Yollar... mənzərələr... : Səttar Bəhlulzadə haqqında xatirələr. - Bakı : Aspoliqraf, 2009. - 128 s. : il., foto, rəngli foto.

***Kitablarda***

**Qurban T.** Sənətin ecazkar yolu : Səttar Bəhlulzadə haqqında // Ömür yolları. - Bakı : OL, 2013. - S. 170-176.

**Rza R.** Rənglər şairi ; Sən xoşbəxtsən, qardaşım! : Səttar Bəhlulzadə haqqında // Seçilmiş əsərləri. 5 clddə. - Bakı : Öndər, 2005. – C. 5. - S. 226-229.

**Rza X. (Ulutürk).** Səttar Bəhlulzadə // Gəl, ey səhər. - Bakı : Nağıl evi, 2004. - S. 82-87.

**Rzaquluzadə M.** Eşq olsun : Səttar Bəhlulzadəyə // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2006. - S. 41.

*Dövri mətbuatda*

**Altunbay O.** Rənglərin sultanı : (Gözəllik zirvəsinin fəthi) // Respublika. - 2019. - 30 aprel. - № 93. - S. 6.

**Azəri L.** Səttar Bəhlulzadənin sənət sərvəti // Mədəniyyət. - 2015. - 4 sentyabr. - № 68. - S. 10.

**Əliyev Z.** Naməlum Səttar : Xalq rəssamı Səttar Bəhlulzadənin naməlum əsərləri haqqında // Kaspi. - 2017. - 11 noyabr. - № 190. - S. 24.

**Əliyev Z.** Rəmzə çevrilən sənətkar : Səttar Bəhlulzadənin xatirə günündə düşüncələr // Kaspi. - 2015 . -10 -12 oktyabr. - № 165. - S. 24.

**Əliyev Z.** Səttar Bəhlulzadə dühasının parlaq plastik ifadəsi : Bir əsərin tarixçəsi // Mədəniyyət. - 2017. - 15 dekabr. - № 98. - S. 12.

**Əliyev Z.** Səttar Bəhlulzadə fenomeni // Azərbaycan. - 2016. - 18 dekabr. - № 281. - S. 10.

**Əliyev Z.** Səttar Bəhlulzadə fenomeni // Ədəbiyyat qəzeti. - 2016. - 13 avqust. - № 29/30. - S. 20, 25.

**Əliyev Z.** Səttar bənzərsizliyinin bədii ifadəsi : Bir əsərin tarixçəsi // Mədəniyyət. - 2017. - 30 iyun. - № 50. - S. 13.

**Əliyev Z.** Torpağın arzusunun hikməti : [Xalq rəssamı Səttar Bəhlulzadənin 34 illik yaradıcılığının ən yaddaqalan əsər nümunəsi] // Mədəniyyət. - 2016. - 25 noyabr. - № 90. - S. 13.

**Əliyev Z.** Və Səttar dünyası : Azərbaycan Xalq rəssamı Səttar Bəhlulzadə haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 14 mart. - № 16/17. - S. 19.

**Mükərrəmoğlu M.** Rəssamlıq onun tale yazısı idi // Xalq qəzeti. - 2017. - 15 dekabr. - № 277. - S. 8.

**Mükərrəmoğlu M.** Səttarın rənglər dünyası // Xalq qəzeti. - 2015. - 20 dekabr. - № 281. - S. 6.

**Nuriyeva Z.** Qarşı yatan uca dağlar : 1950-1960-cı illər Azərbaycan mənzərə rəssamlığına ötəri bir baxış // Qobustan. - 2015. - № 1. - S. 51-53.

**Səttar Bəhlulzadə (1909-1974)** : görkəmli şəxsiyyətlər // Savalan. - 2017. - 2-5 iyun. - № 24. - S. 2.

***Rəssama həsr olunmuş bədii əsərlər***

**Bayram T.** Ruhun şad olsun : Səttar Bəhlulzadəyə həsr olunmuş şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 122.

**Bayram T.** Səttar möcüzəsi : şeir : Səttar Bəhlulzadəyə həsr olunur // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 115.

**Bayram T.** Yamanlığa yaxşılıq : Səttar Bəhlulzadəyə həsr olunur // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 122.

**Bayram T.** Sənətin Məcnunu : Səttar Bəhlulzadəyə həsr olunur // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 121.

**Bayram T.** Səttar Bəhlulzadənin xatirəsinə : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 89-90.

**İsgəndərzadə E.** Səttar Bəhlulzadə nağılı : rəsmlərlə poema // Çərçivəsiz rəsmlər : Vektor Nəşlər Evi, 2004. - S. 41-64.

**Paşa O.** Bir kölgə qaçır hər gün : Səttar Bəhlulzadəyə [şeir] // Qobustan. - 2018. - **№ 3**. - S. 41.

**Rüstəmxanlı S.** Səttar Bəhlulzadə küçəsi haqqında şəhər sovetinə açıq məktub // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S. 43-45.

**Rza X. (Ulutürk).** Səttar Bəhlulzadəmiz : şeir // Seçilmiş əsərləri. 2 cilddə. - Bakı : Şərq-Qərb, 2005. – C. 2. - S. 51-52.

# Azərbaycan xalqının dahi sənətkarı

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 22
Çapa imzalanmışdır: 17.04.2019
Tirajı:100
Pulsuz